**Azərbaycan.** - 2024.- 6 mart. - № 51. - S. 5.

# COP29-un Azərbaycanda keçirilməsi qərarı ölkəmizin beynəlxalq nüfuzunun təsdiqidir

**Vahid Məhərrəmov**

**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ölkəmizdə keçirilməsinə dair qərarı həm yerli, həm də xarici müşahidəçilər tərəfindən çox mühüm bir hadisə kimi qiymətləndirilir.**

Bu mötəbər tədbirin ölkəmizdə keçirilməsi qərarı Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da yüksəldiyini göstərir. Bunun həm siyasi, həm də iqtisadi əhəmiyyəti var. Bu tədbirin ölkəmizdə keçirilməsinin mühüm tərəflərindən biri də odur ki, dünyanın hər yerindən gələcək 70-80 min qonaq işğaldan azad edilmiş rayonlarımıza səfər edəcək, bu ərazilərimizlə yaxından tanış olacaq. Bu həm də gələcək illərdə turizmin inkişafına da güclü təkan verəcək.

Onu da qeyd edək ki, BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədi daşıyır. 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində əsası qoyulan "Tərəflər Konfransı" kimi nəhəng, 198 üzv dövləti özündə birləşdirən COP29-un ölkəmizdə keçirilməsi qərarı Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna əməyinin nəticəsidir. İlk dəfə 1995-ci ilin martında Berlində təşkil olunan, hər il keçirilən COP-un katibliyi Bonn şəhərində yerləşir. Bütün böyük dövlətlər bu tədbirə evsahibliyi etməyə can atır.

Bundan əvvəlki tədbir - COP28 keçən il Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilib. COP29-un bir sıra iqlim dəyişikliyi məsələlərini müzakirə etmək və danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirən böyük bir tədbir olacağı gözlənilir. COP tədbirlərində adətən gündəlik müəyyən edilir və tədbir zamanı müzakirələrdən sonra yekun sənəd qəbul olunur. Azərbaycanda keçiriləcək COP29-un gündəliyi hələ məlum deyil. Güman edilir ki, tədbirin gündəliyi 2024-cü ilin mayında Almaniyada keçiriləcək Petersberq İqlim Dialoqu zamanı müəyyən ediləcək. İndiyə kimi belə ənənə formalaşıb ki, illik COP tədbiri keçirilməzdən əvvəl dünyanın fərqli ölkələrinin iqlim icmasından olan tanınmış şəxslər və nazirlər Berlində yığışaraq bu tədbirin də gündəliyini müzakirə edirlər. Burada nazirlər və diplomatlar növbəti COP tədbiri - əsas iqlim konfransı üçün prioritetləri müəyyənləşdirirlər. Gündəlik müəyyən edildikdən sonra isə zəruri tədbirlər görülməyə başlanılır.

2015-ci ilin dekabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına üzv ölkələrin 21-ci konfransında Paris Razılaşması qəbul olunub. Sənədi 171 ölkənin hökumətləri adından dövlət və hökumət rəhbərləri, xarici işlər, ətraf mühit nazirləri imzalayıb. Bu sənədi 2016-cı ilin aprelində Nyu Yorkda, Birləşmiş Millətlər Təşkilatının Mənzil Qərargahında Azərbaycan Respublikası Hökuməti adından Ekologiya və Təbii Sərvətlər naziri imzalayıb. COP tədbirlərinin məqsədi Paris Sazişinin tələbi olaraq dünyada karbon qazının (CO2) miqdarını sənayeləşmədən əvvəlki dövrdəki kimi 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq üzrə irəliləyişə nail olmaqdır.

Bundan başqa, inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinin təsirini azaltmaq və uyğunlaşmaqda kömək etmək üçün maliyyə yardımına dair fond yaradırlar. İnkişaf etməkdə olan ölkələrin artıq üzləşdiyi iqlim dəyişikliyinin qaçılmaz təsirlərinə və bu təsirlərin aradan qaldırılması üçün maliyyə və digər dəstəyə ehtiyacı var. Həmin dəstək olmadan inkişaf etməkdə olan ölkələr təmiz enerji mənbələrinə keçid edə, qlobal karbon qazı ifrazını azalda bilməzlər. COP29 konfransı iştirakçısı olan ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını həll etmək, bununla bağlı konkret addımlar atmaq üçün bir fürsətdir. Əminliklə deyə bilərik ki, Azərbaycan da bu fürsətdən bacarıqla istifadə edərək "yaşıl enerji" istehsalını artırmağa nail olacaq.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyev 13 yanvar 2024-cü ildə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb. Göründüyü kimi, ölkəmiz bu mühüm tədbirin yüksək səviyyədə keçirilməsi üçün zəruri olan bütün işləri görür.

COP29 iqlim dəyişikliyinin azaldılmasına və "yaşıl enerji"dən istifadəyə yönəlmiş qlobal təşəbbüslərin təşviqində mühüm rol oynayan beynəlxalq əhəmiyyətli bir tədbirdir. COP29 ölkəmizdə "yaşıl ideyaların" reallaşması istiqamətində institusional və kompleks tədbirlərin həyata keçirilməsinə böyük

təkan verəcək. Tədbirin keçiriləcəyi günlərdə dünyanın aparıcı dövlətlərinin elmi mütəxəssisləri ölkəmizdə cəmləşəcək. Deməli, həmin günlərdə sanki dünyanın ürəyi Azərbaycanda döyünəcək.